Bu dünya durduqca duracaqsınız

VƏTƏN EŞQİNƏ

Ay ellər, bir məni dinləyin barı,
Endirin dağlardan tez ilxıları!
Hanı göy qulanlar, kəhərlər hanı?
Hanı qantarğalar, yəhərlər hanı?

Düşmən ayaq basır doğma vətənə;
Tez tutun, hardadır göy səmənd atım!
Qoyun qollarımı çırmayıb yenə
Dəli ürgələrə bir kəmənd atım.

Durmayın, atları tez yəhərləyin!
Bizə müntəzirdir cəbhələr yəqin.
Çiynimdə bayrağım günəşdən uca,
Gedirəm, atlanın, sürün dalımca!

Kim deyir "şeirdən indi kar aşmaz"?
Kim deyir "şairə silah yaraşmaz"?
Bizim məskənimiz edilsə soraq,
Bilin cəbhələrdə gərmişik sinə.

Şərəfdir at minmək, qılınc bağlamaq
Azadlıq eşqinə, vətən eşqinə!..
Çiynimdə bayrağım günəşdən uca,
Gedirəm, atlanın, sürün dalımca!

İyun 1941

BU DÜNYA DURDUQCA DURACAQSINIZ

Sən, ey buludların bağrını yaran,
Tutqun üfüqlərdə qan tək qızaran,
Zülmətlər içində açılan səhər!

Sən, ey səngərləri sıçrayıb keçən,
Süngünün, qılıncın sıx meşəsindən
Düşmənin üstünə şığıyan kəhər!

Sən, ey səməndimin yarı, yoldaşı,
Döyüş meydanında sədəfli qaşı,
Sinəmin qanilə bəzənən yəhər!

Sən, ey başdan-başa alışıb yanan,
Yerbəyer məhv olan, təslim olmayan
Ağır bombalarla dağılan şəhər!

Sən, ey od içindən çıxıb müzəffər,
Volqa sahilindən Berlinə qədər,
Qırmızı bayrağı daşıyan əsgər!

Bu qızıl xətlərlə yazıram sizi,
Hərəniz tarixdən bir yarpaqsınız –
Bu dünya durduqca duracaqsınız!..

1945

ŞAİRİN HƏDİYYƏSİ

Bizim ev hazırlıq aparır bu gün,
Bir işlə məşğuldur ailə bütün.
Evin ortasında bir qutu durur,
Onun dövrəsində dolanır məğrur.
Alnında əzəmət, vüqar, ehtişam
Evin ağsaqqalı – mehriban babam.
Odur yığıb qoyan, səhərdən bəri
Cəbhəyə gedəcək hədiyyələri.

– Ordu dayağıdır, – deyir, – ölkənin,
Bayram yaxınlaşdı, əlli tərpənin!
Ehtiyat lazımdır bizə hər zaman.
Soyuq günlər gəlir yenə qabaqdan
əsgərlərə indidən gərək
Yaxşı qış paltarı tikib göndərək.
Üzünü nənəmə tutur ixtiyar:
– A qarı, ləngimə, gətir, nəyin var!
Nənəm yağ gətirir, anam bal qoyur,
Bacım işləməli bir dəsmal qoyur;
Atam qovurma ət, qardaşım şərab,
Yengəm də bir yaylıq, iki cüt corab.
Bir tabağa yığıb xalam Gülsabah
Gətirir qatlama, qutab, paxlava.
– Layiqsiz olsa da, göndərək, paydı...
Barı, sağ-salamat gedib çıxaydı.
Gələn hədiyyələr bir-bir yoxlanır,
Qoyulur qutuya ağzı mıxlanır.
Diqqətlə üzümə boylanıb hamı,
Elə bil dedi ki, hədiyyən hanı?
Sanki bir od qopdu mənim sinəmdən...
Ox kimi yerimdən atılıb həmən,
Dolabın içini tökdüm, axtardım,
Nazik bir kitabça tapıb çıxardım.
Onu, yelkən kimi, tez açaraq mən,
Dedim ki, mənim də, budur hədiyyəm...
Bu ciyər qanımdır, alın tərimdir,
Öz ürək sözümdür, öz əsərimdir
Əlvan bir dəmətdir, ömrüm uzunu
Könül bağçasından dərmişəm bunu.
Şərimlə cəbhəyə gedəcək canım,
Ucuz tutulmasın bu ərmağanım!
Şeir – ölkəmizin məğrur səsidir,
Şairin ən böyük hədiyyəsidir!..

Bakı, aprel 1942

BAHAR ÇİÇƏKLƏRİ

Bahardır... gün dəyir, yer nəfəs alır,
Ötür həzin-həzin meşədə quşlar.
Gözlərim bir səmtə dikilib qalır,
Düşür xəyalıma dalğın baxışlar...

Deyirəm, görəsən, əziz dilbərim
Hardadır, necədir, məni anırmı?
Üstümə nur səpən parlaq ülkərim
Başımın üstündə yenə yanırmı?

Qaydadır, dost-dosta, tanış-tanışa
Ərmağan göndərər bayram günləri;
Mənim də ürəyim dönməmiş daşa,
Bir an unutmadım, səni, ay pəri!

Ancaq, burda tanklar, maşınlar, toplar,
Bol mərmi yığını, patron qalağı...
Dilbərim, özün de... de, burda nə var,
Sənə nə göndərim bayram qabağı?..

Budur, səngərimin önündə erkən
Bahar çiçəkləri gözünü açmış,
Lakin mərmilərin ağır zəhmindən
Onların gül rəngi bir azca qalmış...

Gözəlim! Sən nə küs, nə inci məndən,
Neyləyim, münasib bildiyim budur
Yazmasam da özün hiss edəcəksən:
Bunlar ətirdən çox, barıt qoxuyur.

Layiq bilməsəm də, həvəslə dərdim,
Küsmə, göz bəbəyim, küsmə amandır!..
Qoyub məktubuma sənə göndərdim,
Qəbul et, cəbhədən bir ərməğandır...

Vətənim al geyir indi sərbəsər,
Göy şamlar bürüyür sahili yenə...

Bəzənib çıxacaq qızlar, gəlinlər
Sevimli Xəzərin axşam seyrinə.

Ürəklər şad, xürrəm üzlər gülər, şən
Əl-ələ, qol-qola gəzəndə hamı.
İpək donlarını tezcə gey, bəzən,
Sən də sahilə çıx bayram axşamı.

Nə edim, bir ildə üç ay yaz olur,
Mümkünmü üç saat səni unutmaq?..
Heyif, çiçəklərin ömrü az olur,
Sənə çatanacan bəlkə solacaq.

Ah, bilsən necə xoş gələrdi mənə,
Bir müjdə olsaydı bunlar vüsala...
Barı, bu güllori asıb köksünə,
Əziz bayram günü məni xatırla!

Kim desə – yaraşmır bunlar, ay pəri;
Utanma, sıxılma, iftixarla sən.
De, solğun olsa da, bu çiçəkləri
Nişanlım göndərib mənə cəbhədən...

Bakı, 1945

ALA ÇİNAR

(*Yaralı şairin dəftərçəsindən*)

Ala çinar! Şeir yazdım sinənə,
Xatirimdən silinməmiş o yenə...
Görən indi o yazılar qalırmı?
Oxuyanlar məni yada salırmı?

Ala çinar! Duyan varmı de səni?
Kim yazları məskən edir kölgəni?
De, yanına şən diləklə kim gəlir?
Kim kölgəndə şeir yazıb dincəlir?

Ala çinar! Yazıq anam – baxtı kəm
Bilirdi ki, mən sənlə həmdəməm...
İndi hər gün qara salıb başına,
Axşam-səhər dolanırmı başına?!

Ala çinar! Bir niskilim var mənim,
Yeddi yerdən yara aldı bədənim,
Min keçiddə ölüm kəsdi yolumu,
Döyüşlərdə itirdim bir qolumu,
Mən ölsəm də alınacaq qisasım, –
Təki sənin bir budağın sınmasın!..

Ala çinar! Qanın vardır qanımda,
Üzüm ağdır, utanmaram yanında...
Heç demədim, əyri yollar haçadır, –
Əyilmə ki, mənim başım ucadır!..

Ala çinar! Heç demədim dağ-dərə,
Hara gəldi, sinə gərdim səngərə...
Qoy mərmilər dik başımı əyməsin,
Mənə dəysin, yarpağına dəyməsin!

Ala çinar! Xəbər vermə anama,
Mən ölurəm...sən ah çəkib ağlama!
Yenə bəzən tovuz kimi sərbəsər,
Sən bəzənsən, gəlin-qızlar bəzənər...

1945

SÜNBÜL VƏ AT NALI

(*Bir əsgərin dilindən*)

Biçinçi qardaşım, elə biç ki, sən
Bir sünbül düşməsin yerə əlindən!
Dəmirçi! Nal qayır sən də vurhavur,
Atım cəbhələrdə qalmasın yalın.
Bilin, vuruşlarda mənası çoxdur
İndi hər sünbülün, hər at nalının!

Bakı, iyul 1941

AĞ XƏLƏTLİ QIZ

Gözüm pəncərədən baxır uzağa.
Görürəm hər tərəf bürünmüş ağa –
Yamaclar incə tül, zərif bir gümüş...
Mənim çarpayım da ağa bürünmüş.
Boz evin içi ağ, həyəti ağdır,
Sevdiyim qızın da xələti ağdır.

O mənim bir müddət qeydimə qaldı,
Əlim şəfa tapdı, qolum sağaldı...
Lakin qovr eyliyən bircə "yaram" var,
Mənə o "yaranı" burda vurdular...
Güllələr, mərmilər edəndə tüğyan,
Sinəmdən dəymədi, dəydi qolumdan.
Lakin, bir ox atıb, ağ xələtli qız,
Sinəmdən o vurdu, o vurdu yalnız...

Nə qədər gizlətdim məhəbbətimi,
Dolandı başıma pərvanə kimi.
Yaramı diqqətlə açır, bağlayır,
Mən tutqun oldummu, o da ağlayır.
Azca üzüldümmü, o da üzülür,
Güldümmü, onün da gözləri gülür...
Bir səhər gətirib süd verir mənə,
İçmirəm. Qaşlarım çatılmış yenə...
İsladıb alnıma tez kətan qoyur,
Nə kətan, yolumda hətta can qoyur...
– Ağrın azalırmı?
– Yox, azalmayır.
Ölürəm, qeydimə kimsə qalmayır...
Qızın xəncər kimi çatılır qaşı,
Axır yanağına isti göz yaşı.
– Qoy həkim çağırım.
– Yox, yox, istəməz,
Dərdimi onsuz da bilmədi heç kəs!..
Gördüm o tutuldu, qara bulut tək,

Dedim ceyran qıza, gülümsəyərək:
– Gedər ağrılarım, ey gözəl, inan,
Narın əllərini sinəmə qoysan...

Bakı, yanvar, 1943.

BU YER ONUN YERİDİR

İpək, şal donlarını açıb tökdü önünə
O, geyinmək istədi, lakin düşündü yenə:
– Mən hansını geyinim... qaramı, qırmızımı?..
Gəlin xeyli düşündü, geyindi qırmızını.

Axşam güllü, çiçəkli qonaqlar töküldülər...
Tanışlar mehribanca danışdılar, güldülər,
Yer verildi hər gələn əziz yara-yoldaşa,
Doldu bəzəkli otaq qonaqla başdan-başa.

Mən görürdüm, ortada bircə boş yer qalmışdı.
Hanı onun sahibi?.. Bu dərd məni almışdı.
O qonağı düşündüm, ürəyim dincəlmədi:
Hamı gəldi yetişdi, bəs o niyə gəlmədi?
Bəlkə aranı kəsən uca zirvəli dağdır?
Bəlkə indi o yoxdur... Bəlkə indi o sağdır?..
Niyə isti çörəyi soyudu, buza döndü?
Niyə qızın gözləri sönən ulduza döndü?..

Süzüb şəkli, gəlinin tutuldu qaşqabağı
Gözlərinə apardı üzü güllü yaylığı,
Sanki bizə deyirdi dodaqaltı arabir:
"Kimsə burda oturmasın, bu yer onun yeridir".
Tez mən dedim ürəyimdə, hələ deyilməmiş tost:
"Yerin məlum, əziz qardaş, yerin məlum, əziz dost!.."

Hamı durdu ayağa, qaldırıldı badələr,
Cəbhədəki əsgərin sağlığına içildi.
Süzüb şəkli, gəlinin tutuldu qaşqabağı,
Gözlərinə apardı üzü güllü yaylığı.

Sonra da qonaqların qəlbi sınmasın deyə
Düşüncələr içində yaxınlaşdı süfrəyə:
Titrədi dodaqları... eşitmədik səsini,
Sahibsiz piyaləyə vurdu piyaləsini...

Bakı, yanvar, 1943

BU ALƏMDƏ NƏ ÇATMAYIR?

Sakit bir gecədir, səssiz-səmirsiz.
Silinmiş aynası göyün tərtəmiz.
Torpaqdan çəkilmiş odlar, alovlar,
Nə tüfəng səsi var, nə top səsi var...
Dirçəlir təbiət, canlanır həyat,
Dincəlir yorulmuş qoca kainat...

Kürrələr dövr edir yenə nizamla,
Ay yeri seyr edir bir ehtişamla.
Yenə məşəlini yandırıb Ülkər,
Yerlər o yerlərdir, göylər o göylər!..

Aləm öz yerində qaim olsa da
Bir şey çatışmayır yenə dünyada.
Siz deyin, aləmdə çatmayan nədir,
Neçin göyün qəlbi şanə-şanədir?
Bəlkə bu hikmətin bir mənası var?!
Göydə səf-səf oldu Karvanqıranlar
Odur,Yeddi qardaş verdi baş-başa,
Tərəzi ulduzlar dayandı qoşa.
Müştəri, Zöhəli tez andı gəldi,
Zöhrə öz yerinə dolandı gəldi.
Bircə o gəlmədi, o gəlmədi, ah...
Görən harda söndü Ülkərim, eyvah!..

Mənim dağdan böyük bir kədərim var,
Nəmli gözlərimdə dondu intizar –
Yel vurdu, gül qopdu öz budağından

Könlümün sarayı uçdu tağından.
Müşküllər düzəldi, o düzəlmədi,
İstəkli bir dostum getdi, gəlmədi...

Kürrələr dövr edir yenə nizamla,
Ay yeri seyr edir bir ehtişamla.
Yenə məşəlini yandırıb Ülkər,
Yerlər o yerlərdir, göylər o göylər!..

Bakı, 22 yanvar, 1943

GÖZÜNÜZ AYDIN

Gərgin qaşlarını çatanda zaman,
Bir xəbər yayıldı şəhərə, kəndə...
Sənin əziz oğlun, o ciyərparan
Alıb silahını yola düşəndə
Polad qollarını boynuna saldı,
Nəmli gözlərində dünya qaraldı...

Öpüb əllərindən, düşəndə yola,
Qəlbin də, könlün də getdi onunla...
Xəyallar içində hər saat, hər gün
Onu xatırladın, onu düşündün.
İndi, əziz ana, mehriban ana!
Bu ellər yenidən gəldi cahana.
Silindi göylərdən qara buludlar,
Gözün aydın olsun, bir şad xəbər var!..

Ey uzaq yolları gözləyən gəlin!
Yenicə çıxmışdı xınadan əlin.
Güllü bağçamızı boranlar aldı,
Sənin toy paltarın boğçada qaldı...
Zəfər bayramını etməmiş vətən,
Bir dəfə geyinib bəzənmədin sən.
Narın əllərinə xına qoy indi,

Səadət sənindir... dünya sənindir!..
Bu gündən açılsın bağlı boğçalar.
Gözləriniz aydın, bir şad xəbər var!..

Sən ey çiçək dərən, dəstə bağlayan,
Bağçada gah gülən, gah da ağlayan,
Arabir eyvana çəkilib yalnız –
Baxıb bir şəkilə qəmgin olan qız!
Duyuram, qəlbində dərdin var sənin,
O kədər – cavabsız eşqindir, yəqin.
Yolunu gözlədin xeyli zamandır,
İncimə, amandır, küsmə, amandır!
Bir daha getmə sən fikrə, xəyala,
Az qaldı, az qaldı şirin vüsala...
Bağçanız güləcək, gözlərin aydın!
Nişanlın gələcək, gözlərin aydın!

Xalqın silahını, qılıncı – qını
Müqəddəs daşıdıq vicdanımızla;
Sular söndürməyən qorxunc yanğını
Əzmlə söndürdük öz qanımızla.
Asdı bayrağını göylərə zəfər,
Silindi buludlar, açıldı hər yan...
Bir düha, bir qılınc, bir də bu ellər
Çıxardı bəşəri qan dəryasından.
Gözündə qalmadı xalqın diləyi –
Dayandı qan seli, səmum küləyi.
Söndü cəhənnəmin alovu, söndü,
Dünyamız yenə də cənnətə döndü...

Qumaş paltarını geyindi dağlar,
Töküldü sinəmə şır-şır bulaqlar...
Ay ellər, göylərə uçanda xəyal
Saz hanı, tar hanı, ney, qaval hanı?
Çal, dönüm gözünə, aşıq, sən də çal!
Qoy səsin bürüsün bütün cahanı!
Ellər bu yanğından çıxdı hünərlə,

Böyük qalibiyyət, böyük zəfərlə
Qayıdır cəbhədən dostlar, tanışlar,
Gözləriniz aydın, bir şad xəbər var!

May, 1945

DEYİRLƏR

Deyirlər: hökmü var dövrün, zamanın,
Anın da hökmü var xeyirdə-şərdə.
Daim döyünsə də qəlbi insanın,
Dincəlir bu ani döyüntülərdə.

Deyirlər: qovğadan çıxmış bir aslan
Baxıb sinəsinin axan tərinə,
Ağac kölgəsinə uzanıb, bir an
Başını söykədi biləklərinə.

Deyirlər: bir darda el qəhrəmanı,
– Eli qurtaracaq öz əlim, – dedi.
Əzib yeddi başlı bir əjdəhanı,
– Haqqım var azacıq dincəlim, – dedi.

Deyirlər: otuz il bir münəccimin
Yuxusuz gözləri səmada qaldı.
Elə ki, hökmünə inandı yəqin,
O gecə bir şirin yuxuya daldı.

Deyirlər: bir düha oddan-alovdan
Əzmlə çıxardı bəşəriyyəti.
Dünyanı nurlarda gördüyü zaman,
Unutdu çəkdiyi min əziyyəti.

Deyirlər: göylərdən çox məğrur gəlir
Ov alıb dönəndə şahin şikardan.
Böyük sərkərdələr belə dincəlir
Müzəffər çıxanda vuruşmalardan...

Bakı, noyabr, 1945

Ən geniş aləm

ƏN GENİŞ ALƏM

– Altmış il nədir, sən yüz demişdin –
Bir dostum söz atıb, toxundu yenə...
Dedim ki, nə zaman doğulduğumu
Kim görüb, kim bilir söyləsin mənə!

Qardaş, eləcə də məchuldur o gün –
Harada "əlvida" edəcəyəm mən –
Nə zaman gözümü çəkib dünyadan
Başqa bir aləmə gedəcəyəm mən?..

Bu sözlər qəribə gəldi dostuma
– "Başqa bir aləmə..." deyib, o güldü.
Sanki bu gülüşlə qarşımda mənim
Üfüqlər qızardı, al dan söküldü...

Bircə aləmi var qələm əhlinin –
Vaxtilə bir səyyah belə demişdir: –
"Gəzdiyim, gördüyüm min bir dünyadan
Şeriyyət aləmi daha genişdir..."

O geniş aləmin qapısı dardır –
Açmaq üçün gərək hünərin olsun!
Mən hünər dedikdə – əsər deyirəm –
Qapı açа bilən əsərin olsun!..

O zaman əbədi yadigar qalar
Yazan qələmin də, yazı masan da.
Yox, əgər sənətin cin deyilsə,
Yaşasan da olar, yaşamasan da...

Bakı, 1965

ÖZ BULAĞIMDIR

Aran qışlağımdır, dağ yaylağımdır,
Al-yaşıl yamaclar şən oylağımdır.
Nə yağış suyudur, nə qar suyudur,
Sinəmdə çağlayan öz bulağımdır.

1944

SİLAH

Kef edənlər olsa da...
Çoxdur amanlar, ahlar...
Cürbəcürdür silahlar.
Bəxtim yaxşı gətirdi
Mənim nə bir sultanım,
Nə də bir şahım oldu.
Mənа gəzdim sözlərdə,
Mənа verdim sözlərə,
Bəlkə günahım oldu?
Sözlü qafiyələrim,
Qafiyəli sözlərim
Mənim silahım oldu.

1983

TANINARSAN

Sənətkara sima gərək, –
O yaranır qanla, tərlə.
Qalibiyyət qazanılır
Bir əməklə, bir hünərlə.

Varındırsa bunlar əgər,
Məyus olma, demək varsan.
Min adamın arasında
Seçilərsən, tanınarsan!

1976

İŞIQ SAÇIR

Şeir firavanlıq, gümrahlıq sevir
Nə faciə istər, nə də fəlakət.
Qələm düşmənidir qaranlıqların
Yanır, işıq saçır zülmətə sənət.

1977

ÖZÜNƏ BƏSDİR

Ləyaqətin varsa taparlar səni,
Şan-şöhrət dalınca qaçmaq əbəsdir.
Şairlikdən böyük dünyada nə var,
Öz adın, öz sanın özünə bəsdir.

1976

İZLƏRİ SİLİNMƏSİN

Oylağımda izim var,
Hələ bir müddət qalar.
İstərdim, indi orda
Yoxluğum bilinməsin,
İzlərim silinməsin!

Evimizə apar, dost
Bu kiçik kitabçanı.
Kəndimizdən şərimin
Ayağı kəsilməsin,
İzləri silinməsin!

1981

BU KİTABIN FƏSİLLƏRİ

Uzun müddət çalışdım,
Yüz fəsilli bir kitab
Üzərində işlədim.

Ağlı, qaralı gündə
Gah güldüm öz ömrümə,
Gah ağladım, inlədim.

Hələlik yazdıqlarım
Onun bircə fəslidir –
Qeyd olunubdur hər gün.

Doxsan doqquz fəslini
Aparıram özümlə,
Vaxtsız ölənlər üçün.

Bilirəm, soracaqlar
Orda yatanlar məndən,
– Qonşu, tez ol, danış, din!

Biz tez köçdük, barı sən
Bizdən sonra dünyada
Nə gördün, nə eşitdin?

1981

BİR XEYRİ VARMI?

Bir tanış varaqladı
Mənim yazdıqlarımı.
Dedi: – Barı bunların
Bizə bir xeyri varmı?

– Qanana xeyirlidir,
Faydalıdır həqiqət.
Geniş qanadlı olur
Qüdrətli şeir, sənət.

Heç kəs doğulmamışdır
Yerdə sürünmək üçün.
Mən şeri yazmayıram
Gözə görünmək üçün.

Mənim bu yazdıqlarım
Sərraf olsa bilərdi.
Yarı insan eşqidir,
Yarı da insan dərdi

1981

ÖZÜMƏ YETİKDİR

İnsanın könlündə məhdud deyildir
Mənalı ömür-gün, şirin, xoş niyyət,
Təəssüf, hər zaman qismət olmayır
Uzun həyat yolu, ağ gün, səadət.

Özünün varını əsirgəmədi,
Bir mələk bəxş etdi təbiət mənə.
Fərəhlə, sevinclə nail olumuşam
Ürəyim sevənə, könlüm deyənə.

Neçəsini özüm yola salmışam,
Köçübdür dünyadan neçə tay-tuşum.
Qocalıq mənim də tutub yaxamdan –
Özümdə deyildir heç əqlim, huşum.

Nigaran deyiləm, lakin sabahdan,
Gözəl ailəm var – oğlum, qızım var.
Sarsılmaz qalamdır arxamda mənim,
Mənəvi qüdrətim, gücümdür onlar.

Xalqımla yaşadım mənən hər zaman.
Müdam qəlbimdədir yaxşı insanlar.
Xoşa gələn varsa yazdıqlarımdan,
Çox güman məni də sevənlər olar.

1977

DİLİN VAR ƏGƏR

Buludlar silinib, gülür təbiət...
Yazın oğlan çağı... iki-üç nəfər
Dəniz kənarında, sərin kölgədə
Yanaşı əyləşib söhbət edirlər:
– Təsadüf etdikcə çox qaşqabaqlı,
Qat-qarışıq dillə deyinir uzun.

Düzünü deyim ki, qana bilmirəm
Nə demək istəyir sənin bu dostun? –
Dostunu müdafiə etmək istədi,
Yuxarı qaldırıb azca əlini:
– Siz heç qınamayın mənim dostumu, –
Bu yazıq bilməyir ana dilini...
Dostum soruşur ki, səbəbi nədir
"Ana dilim" – deyir indi hər yetən.
– Bəs necə? Min nemət dadıbsınız siz,
Deyin, şirin nə var ana dilindən?
– Bilirəm, şirindir, lakin sualın
Bildiyiniz qədər deyildir asan.
– Deyin, yer üzündə həyat olarmı?
Əgər bir-birini qanmasa insan?
Dil dostluq, qardaşlıq xəzinəsidir,
Xoşbəxtdir öyrənib çoxlu dil bilən.
Qara torpağa da layiq deyildir
Öz ana dilini bilməyib ölən...
– Xaricdə qalmışdır çox uzun müddət
Şair, bu dostumu bağışlayın siz.
Mənə də qəribə suallar verir;
Öyrətmək lazımdır bunu şübhəsiz...
O bəzən məni də narahat edir,
Bunun son sualı, şair, belədir:
Öz dili, qanunu yoxdursa xalqın,
Dilsiz bir ölkədə dövlət olarmı?
Hökümət işini idarə edən
Elə ləyaqətli dilimiz varmı?
– Bəli, əlbəttə, var! Get, tarixə bax!
Xalqım var, ölkəm var, elim var mənim.
Dövlət işlərini idarə edən,
Çox güclü qüdrətli dilim var mənim!
Bax indi, anladım, dilin var əgər,
Bil ki, varın da var, sərvətin də var.
– Lakin biz deyirik, – dilin var əgər
Bil ki şe'rin də var, sənətin də var!..

1976

OXUYUN MƏNİ

Ey ana torpağım, ey ana yurdum!
Sənin qucağında ayağa durdum.
Qayğıyla böyütdün heç unutmaram.
Öz torpağın məni, öz suyun məni.
Xram sahilində, Kür kənarında,
İncə dərəsində oxuyun məni!

1982

VARINI VERƏN UTANMAZ

Bir kitab hədiyyə etdiyim zaman
İki söz yazmağa mən adətkaram.
Etibarlı dostdan, yaxın tanışdan
Heç öz canımı da əsirgəmərəm.

İndi deyirsiniz – şair, di buyur,
Verdiyin kitaba iki misra yaz.
Baş üstə, mənim də olanım budur,
Demişlər, "varını verən utanmaz".

Varını deyəndə, dövlət demədim,
Əsarət mənbəyi sərvət demədim.
Varın qabiliyyət, istedad olsun,
Bir də ki ləkəsiz, təmiz ad olsun!

Dostluq nəğmələri, şirin mahnılar,
Bəli, bunlar olub külli-varım da.
Xalqımın diləyi – arzularımdır
Demişəm onları misralarımda.

Dövlətim, sərvətim heç vaxt olmamış,
Bu bir həqiqətdir, əzizim, bilin!
Dövləti yazdığı əsərləridir,
Hər bir elm əhlinin, sənət əhlinin.

1975

BİRCƏ ZƏRRƏM DƏ BƏSDİR...

Yad ellərə düşəndə
qəriblik boğur məni...
Əyilməyə, sınmağa
qoymayır qürur məni...

İstər dən kimi üyüt,
un kimi yoğur məni,
İstər lap qovurğa tək
bir sacda qovur məni.

İstər tonqal qalayın,
siz məni atmaq üçün.
Bircə zərrəm də bəsdir
məni tanıtmaq üçün.

1976

HƏLƏ ÜRƏYİMDƏDİR

Yaş istədim ömrümə
Təbiətdən ilbəil.
Mənim arzum, istəyim
Heç də səbəbsiz deyil.

Ömür bir ehtiyacdır,
Dostum, bunu, bil, bildir.
Son kitabımdır bəlkə,
Bu son sözüm deyildir.

Sual etmə harada,
Sual etmə kimdədir?
Yüz bu qədər kitab da
Hələ ürəyimdədir

1976

Həyat fəlsəfəsi

FİLOSOF VƏ ŞAİR

Filosof

Şair filosof tək durub, düşünüb,
Uzaq üfüqləri görsə yaxşıdır.

Şair

Filosof dostlar da hor müddəanı,
Şeriyyət diliylə versə yaxşıdır.

Filosof

Həyat öyrəndikcə şair özgəyə,
Dərsini həyatdan alsa yaxşıdır.

Şair

Filosoflar dönüb şair olunca
Şairlər filosof olsa yaxşıdır.

Müəllif

Yox, yox! Əzizlərim əbəs yerə siz
Mətləbi uzadıb səhv edirsiniz.
Cəbhə bir olduqda, yol bir olduqda,
Bunlar bir-birinə tamam oxşayır,
Dünyanı, insanı dərk edən, sevən
Şair filosofdur, filosof şair.

1976

XEYİRSİZ OLUR

Ömrümüz əbədi həyatdır, onun
Maddi, mənəvi dünyası vardır.
Baxır, sonsuzluğa baxa bilməyir,
Hər kimin başına bu dünya dardır.

Yaşamaq, yaşatmaq mübarizədir,
Budur məhək daşı işin, zəhmətin,
Fəlsəfi fikirlər, səyyar xəyallar
Qartal qanadıdır şerin, sənətin.

Lakin quru sözə, ehkama dönür.
No zaman fikirlor şcirsiz olur.
Cəmiyyətdən uzaq, həyatdan uzaq
Uydurma fəlsəfə xeyirsiz olur.

1974

YENİDƏN DOĞULACAQDIR

Mübahisə edir iki filosof –
Hansı düz büyurur, hansı cəhl edir?
Bir dünyalıq işdir şərhi dünyanın,
Gəl baş tap bunların hansı haqlıdır?
– Əbədi hərəkət məqbulsa əgər,
Əbədi sükunət gəzmək nahaqdır!
– Dünyada nə varsa yoxluğa məhkum,
Nə yoxsa – yenidən doğulacaqdır...

1974

SÖYKƏNSƏ

Öz işini sevir candan,
Usta utanmaz heç zaman,
Bina uçmaz, iki yandan
Kərən dirəyə söykənsə.